BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2006

# AZƏRBAYCAN POEZİYASINDA İSTİQLAL MÖVZUSU (B.VAHABZADƏNİN YARADICILIĞI ƏSASINDA)

İ.S.ƏLİYEVA*

Yaşadığı müasir dövrün görkəmli siyasi-ictimai xadimi, ədəbi yaradıcılığını istiqlala həsr edən xalq şairi Bəxtiyar Vahabzadənin özünəməxsus xidmətləri indi, xüsusən yetmişdən yuxarı ömürlə üz-üzə gəldiyi bir vaxtda, kino lenti tək gözümüzün önündən gəlib keçir, ürəyimizdə iftixar hissilə minnətdarlıq hissi baş-başa dayanır. Elə buradaca tanınmış şairimiz Nəriman Həsənzadənin bir sözü yada düşür. "Mən İstanbulda olarkən Türkiyənin mədəniyyət xadimi Turan Yazqanın otağında Atatürklə B.Vahabzadənin portretlərinin yanaşı asıldığını görəndə bu hissi keçirmişdim".

Azərbaycan xalqı zaman-zaman müsibətli günlərini yaşayıb tarixin ən ağır imtahanlarını vermiş, mərd oğullarını döyüş meydanlarına çıxarmış, bununla da öz yenilməzliyini sübuta yetirmişdir. Əslində, xalqın özünü və onun içindən çıxan adamları əsrlərin sınağı yetirmişdir.

Böyük şairlərin taleyi də heç vaxt xalqının taleyindən, ictimai həyatından ayrı olmayıb və buna görə də onların fəaliyyəti küll halında götürülərək cəmiyyətin aparıcı qüvvəsi kimi, onun inkişaf tarixi kimi qiymətləndirilmişdir. Bu mənada hansı epoxada yaşamalarından asılı olmayaraq, Türkey də, Sofokl və Şekspir də, Nizami və Füzuli də bizim müasirimizdir.

Əgər Aleksandr Makedoniyalı hərbi yürüşləri zamanı Homerin "İlliada"sını özüylə gəzdirib, ədəbi əsərdəki qəhrəmanlardan öyrənirdisə, tutaq ki, Axillesin Partollun döyüş texnikasından istifadə edirdisə, deməli ədəbiyyat böyük bir makinanın "vintciyi" yox, ən güclü, mühərriki rolunu oynayır, onu hərəkətə gətirir, istiqamətləndirir, səfərbər edir. Misal üçün, qədim Romada Horadis:

Müqəddəsdi, şərəfdi
Vətən uğrunda ölmək!

- deyəndə vətəndaşlıq hissini və ictimai ruhu ön plana çəkir, özündən sonrakı əsrlərdə də xalqların ideallarına xidmət edir və onların müasiri olur.

Budur, sözün ədəbiyyat ömrü!

Beləliklə, Vətən şairdən şairə miras qalır və sonra dünyaya

---

* Əliyeva İfrat Səlim qızı – filologiya elmləri doktoru, BDU-nun Müasir Azərbaycan ədəbiyyatı kafedrasının professoru.

gələn hər bir görkəmli şair onun varisinə çevrilir. Bu tamamilə təbiidir və burada qeyri-təbii heç bir şey ola bilməz. Bu ədəbi varisliyin nəticəsidir ki, “dərdimin yaşıdır mənim öz yaşım” deyən Bəxtiyar Vahabzadə ədəbiyyat dünyasının 40-50-ci illərində mürəkkəb bir tarixi mərhələ dövrü yaşadığı dövrdə sənət aləminə gəlmişdir. Bu o dövr idi ki, bir tərəfdən 30-cu illərin repressiyası məşəqqətlərinin davam etdiyi, digər tərəfdən ədəbiyyata kifayət qədər “diplomatik” gəncliyin gəldiyi dövrə təsadüf edirdi. Ədəbi mühitə yenicə qədəm atan bu gənclik nə qədər ehtiyatlı olsa da, çox zaman emosiyasını gizlədə bilmir, kükrəyib coşub daşırdılar. B.Vahabzadə onlardan biri, hətta birincisi idi.

B.Vahabzadənin millətsevərliyi o həddə çatırdı ki, elə gənclik illərindən, adını tutmaq belə yasaq edilmiş, məsələlər ətrafında diskussiya açmaqdan çəkinmir, özünü oda-közə atırdı. Onun həyatı bu cür riskli cəngavərliklərlə zəngindir.

Hamı elə bilir bir o, beş mənəm,
Hər yerdə hər zaman ancaq baş mənəm.
Elə bilirdim ki, tək çaş-baş mənəm.
Çaşıb mənim kimi hamı, sən demə!

B.Vahabzadə vətəni olan şəxsiyyətdir - sözün böyük mənasında Vətəndaşdır, onun dərin inamına görə, Vətəni sevməyən şəxs vətəndaş deyil, “mənəvi mühacir”dir. Və xüsusi qeyd etmək lazımdır ki, B.Vahabzadənin vətəndaşlığı onun şairliyindən tutmuş, ictimai xadimliyinə qədər bütün fəaliyyətini müəyyən etməklə şəxsiyyətinin ən mühüm atributuna çevrilir. Onun həm bədii estetik, həm elmi -fəlsəfi, həm də ictimai-publisist idrakı M.Cəfərin qeyd etdiyi kimi, “bir nəfərin”, yəni təkcə şairin deyil, mənsub olduğu xalqın özünün vətəndaşlıq, insanlıq vəzifələrini, intibahını, intellektual kamilliyini dərk etməsidir”.

Görkəmli tədqiqatçı alim Yaşar Qarayevin dediyi kimi “keçmişi də, gələcəyi də Vətən tarixinin səhifələri kimi vərəqləyən Bəxtiyar Vahabzadə vətəndaşlığın nə demək olduğunu həm özü, həm millət üçün aydınlaşdırmağa çalışmaqla, mübaliğəsiz deyə bilərik ki, bu günə qədər bir institutun “Vətəndaşlıq institutunun” işini görmüşdü. Dünyaya göz açdığımız zaman ilk dəfə ayağımızı basdığımız torpaq Ana Vətəndir. Sonralar min-min ölkəyə gedə bilər, min ölkənin suyunu içib havasını uda bilər, neçə-neçə torpağın müvəqqəti sakini ola bilərik. Lakin bu torpağın, bu ölkənin heç biri bizə doğma torpağımızı əvəz edib Vətən ola bilməz.

Vətən hər şeydən əvvəl, mənəvi keyfiyyətləri ilə bu torpağın üstündə yaşayan xalqın dili, tarixi, mədəniyyəti, adət-ənənəsi, bir sözlə ruhu və psixologiyası ilə Vətəndir. Vətənə mənəvi keyfiyyətləri ilə bağlanmış adam Vətəni uğrunda hər fədakarlığa, hətta ölümə də gedə bilər (“Ömürdən səhifələr”).

50-ci illərin sonu, 60-cı illərin əvvəllərində B.Vahabzadə artıq Azərbaycanın ən böyük şairlərindən biri idi. O, xalq arasında məşhurlaşmış, şerləri həm aşkarda, həm də gizlində müzakirə edilirdi.

Milli azadlıq ruhunda əsərlərinə görə təqib olunurdu. Ancaq heç bir qüvvə onu susdurmağa qadir deyildi, çünкi Bəxtiyar Vahabzadə Azərbaycanın səsi idi.

Çağlamaq istəyirəm dağda şəlalə кimi
Səpilməк istəyirəm çöllərə lalə кimi,
Dərya olub, nəhr olub çalxanmaq istəyirəm,
Göylərdə ulduz кimi mən yanmaq istəyirəm.
Sığışmaq istəyirəm başsız кüləкlər кimi,
Bəslənməк istəyirəm bütün ürəкlərdə mən
Arzu, diləкlər кimi...

Millətin öz içində boğulmuş həyəcanları, emosiyası, mənəvi ağrısı olmasa idi, şübhəsiz, bu gün B.Vahabzadə adlı bir şair də olmazdı.

Mən кiməm? Qərəzim nə?
Qarşı durdum zülmətə:
Bilmirəm bu millətə
Vəкil etdi кim məni?

"Ağlar-güləyən", "Yollar-oğullar", "Həyat-ölüm" və "Təzadlar" кimi azadlığın mənəvi-əxlaqi əsaslarını qoyan poemalar 60-cı illərdə yazılmış hər biri bir "milli ideologiya" кitabı qədər şüurlara, hisslərə təsir göstərmişdir. Həmin əsərləri ilə şair-ideoloq hissi təfəккürdən əqli təfəккürə кörpü salıb Azərbaycan poeziyasını düşüncələr poeziyasına çevirir – burada millətin düşüncələri ilə millət oğlunun düşüncələri bir-birini gah təsdiq, gah da inкar edir... Millət oğlu bəzən millətlə polemiкaya gedir, ona öz şərəfli кeçmişini xatırladır.

Ey nəvələr, nəticələr
Biz heç nəyiк, biz heç nəyiк...
Gecə-gündüz babamızın
əməlinə heyrətdəyiк,
Heyrət edin, sizsə bizim
səbrimizə...

"Bu günün inкarı isə, əslində şair içərisində yaşadığımız həmin "bu günü" təsdiq edir; əgər biz кimliyimizi, nəyə qadir olduğumuzu artıq biliriкsə, özümüz isə inкar səviyyəsinə gəlib çatmışıqsa, deməli heç nə deyiliк. 60-cı illərin əvvəllərində "Ağlar güləyən" poemasında böyüк Sabirin dili ilə millətin dərdlərini şair bu cür hayqırırdı:

Xalqların cərgəsində
Mən də varam, - deyirəm.
Mən dünyadan özümə
Ədalət istəyirəm.
Həqiqət istəyirəm.
Sədaqət istəyirəm.
Mən "hümmət istəyirəm,

Mən qeyrət istəyirəm...”
Min ildir sirdaşımız
Ələm oldu, qəm oldu.
Niyə, niyə bəs bizim
Qeyrətimiz nəm oldu?!
Yarım bu tayda qaldı,
Yarım o tayda
Toyum burda çalındı,
Yarım o tayda qaldı.
Daha bu əzablara
Canımda bir tabım yox,
Mən təpədən-dırnağa
Sualam - Cavabım yox.

Şairin azadlıq axtaran qəhrəmanı güclüyə meydan oxusa da, şairin özü qədər narahat adamdır - o öz əqidəsini narahatlıqla qoruyur, onun “qul”una çevrilir. Həmin narahat mürəккəb xaraкterli, güclü etiк-sosial ehtirasa maliк qəhrəman 90-cı illərin əvvəllərində hansı ictimai psixoloji ovqatla yaşayırdı. Bu suala cavab verməк üçün “Azadlıq” şerinə müraciət edəк:

Azadlıq, Azadlıq... Ömrüm boyunca
Sənin ağın oldum, möhtacın oldum
Zaman dilimizi qıfıllayınca
Mən sənin daha çox leylacın oldum.
Fiкirlər önünə atıldı daşlar,
Dili fiкirlərə кor oldu başlar.
Amal önündəкi qaya daşları
Nə götürə bildiк, nə qıra bildiк,
Amma ürəкdəкi çarpışmaları
Sözlər arasından sındıra bildiк.
O zaman yazmışdın: «Azadlıq» - səhər
Bu səhər arzusu ölə bilərmi?
Məhкum xalqlar üçün azadlıq qədər
Böyüк bir səadət ola bilərmi?

Laкin millət azadlığa hazır deyilsə, müstəqilliyimizi “bir birinə efirlə, qəzetdə böhtan atmaq”, “vəzifə eşqinə”, “mənfəət eşqinə” hər cür alçaqlığa getməк, Vətən borcunu “rüşvətlə, minnətlə ödəməк” кimi anlayırsa,

...Azadlığın özü, vallah bizim üçün
İndi başqa cürə məhкumluq oldu.
Təzə кol-кos bitib yollarımızda
Nə solumuz bəlli, nə də sağımız
Elə bir gündəyiк qollarımızda
Qandala çevrilib azadlığımız...

“Zülmət əriyərsə”, “Dünən - bu gün”, “Müxalif”, “Gəldi bic əyyam” və s. şerləri ilə xalq hərəкatı “qəhrəmanlarının” кimliyini

xalqa göstərən şair-publisist "Dayan, qaçma, dayan!.. "Qalx ayağa" və s. şerləri ilə vətən oğullarını vətənin müdafiəsinə çağırır. Bəxtiyar Vahabzadənin son illərin ictimai-psixoloji ovqatını kifayət qədər hərtərəfli, dolğun və obyektiv əks etdirən poeziyası milli-sosial təvəkkürə dərindən nüfuz eləmək ürəkləri coşdurmaq, başları düşündürmək qabiliyyətinə malikdir, çünki həmin poeziyanın laylası onun yaradıcısı uzun illərin sosial-estetik idrak təcrübəsinə, milli istiqlal uğrunda mübarizə mədəniyyətinə malikdir.

Şairin daxili azadlığı on il, iyirmi il, otuz il bundan əvvəlki ictimai totalitarizmi qəbul etmədiyi kimi, milli torpaqlarımız da qəbul etmir – küt adamların düşünən adamlar üzərində hakimiyyətini bərqərar edən milli müstəqillik idealı ilə Bəxtiyar Vahabzadəyə həm bir şair, həm də bir publisist olaraq yaddır, bunun bir səbəbi də ondadır ki, həyatını milli mücadiləyə sərf etmiş bu böyük insanın idrakı dünya miqyaslı ictimai-siyasi proseslərdən heç zaman təcrid olunmamışdır – onun təfəkkürünü, bir insanın azadlığı bir millətin azadlığı qədər böyük ictimai-məna kəsb edir:

Doğulduğun, böyüdüyün Vətənində,
Haqq tapdanıb, şər udulsa, vay halına!
Səxavətin unudulsa, qəm eləmə,
Ləyaqətin unudulsa, vay halına
İmzası var yasda toyun, toyda yasın,
Bu qütblər bir-birindən ayrılmasın.
Sənə şorun bahalığı dərd olmasın
Yağın şorla bir tutulsa, vay halına
Hər söhbətin hər məclisdə yeri deyil,
Unutma ki, qocalırsan sən ilbəil,
Yaşıdların sənə gülsə, zarafat bil,
Balan yaşlı cavan gülsə, vay halına!
Həyatından gileylənib çox ağlama,
Ötənləri yana-yana varaqlama,
Arzuların ölməsinə yas saxlama,
İnam ölsə, iman ölsə, vay halına
Nöqsanını üzə deyən namərd deyil,
Kirayədə yaşadığın ev yurd deyil,
Anan sənə ögey olsa, bir dərd deyil,
Zaman sənə ögey olsa, vay halına.

B.Vahabzadənin şerləri ilə yaxından tanış olduqdan sonra böyük yazıçı Çingiz Aytmatov "Azərbaycanlı şairi oxuyanda – dünyanı oxuyursan" - demişdi. Dünyanın taleyinə cavabdehlik, öz millətini azad görmək arzusu, insana, onun milli mənəvi əxlaqi ideallarına hörmətlə yanaşmaq və s. B.Vahabzadəni dünya miqyaslı bir şair etmişdir.

Şair B.Vahabzadəni daima düşündürən və narahat edən məsələlərdən biri də onun istər tarixi səpkili əsərlərində, istərsə də mövzunun kənardan götürülməsi, demək olar ki, B.Vahabzadə üçün həmişə şərti səciyyə daşımışdır.

Elə buna görə də “Yollar-oğullar”, “Dar ağacı”, “Fəryad” və s. kimi poema və pyeslərdə, onlarla şerlərdə qaldırılan problemlər müəllifin mənsub olduğu millətin, içərisində yaşadığı dövrün problemləridir. 70-ci illərin əvvəllərində şair “Dar ağacı” poeması barədə yazırdı. Azərbaycan xalqının böyük ictimai-siyasi xadimi Heydər Əliyevin kommunist ideologiyasına ürəkdən inanmasını, xalqımıza fəlakət gətirən həmin ideologiyaya əsaslanmasını görəndə “Dar ağacı” faciəsini yazdım. Hadisələri min il geriyə çəkən dramaturq böyük sələfi M.F.Axundzadənin baxışı ilə bu günün problemini - “inanıb aldanma”nın faciəsini təqdim etmişdir.

B.Vahabzadə daxilində yaşamağa məhkum olduğu rejimə qarşı həmişə bir düşüncə cəngavəri kimi dayanmış, onlarla, yüzlərlə, şairlər imperiyaya məddahlıq edəndə, o, həmin imperiyaya qarşı meydan oxumuşdur. Həm birbaşa, həm də dolayısı ilə şəxsiyyətin (və millətin) azadlığını təbliğ edən 70-80-ci illərdə nə qədər fəxri adlar, mükafatlar almışsa, 50-60-cı illərdə (hətta sonralar da) bir o qədər təqib olunmuş, “hər gün, hər ay həbs” olunacağını gözləmişdir.

“Gülüstan” poeması ilə bağlı şairin başına gətirilən müsibətləri xatırlamaq, elə bilirik kifayətdir...

“Şəki fəhləsi” qəzetində (23-26 oktyabr 1960-cı il) çıxdıqdan sonra əsəri müxtəlif səviyyələrdə çox müxtəlif emosiyalar doğuran şair, mətbuata, televiziyaya, radioyaya buraxılmır, şerləri tənqid hədəfinə çevrilir, “Köklər, budaqlar” kitabı qadağan olub kitabxanalardan yığışdırılır və s.

Ancaq “Gülüstan” Azərbaycan poeziyasının 30-cu illərdən sonra kifayət qədər ucadan deyilmiş, bəlkə də ilk namuslu sözü idi ki, poetik təfəkkürün sərhədlərindən kənara çıxıb, ümumən milli ictimai düşüncəni silkələdi. Yalnız məsələdən o qədər də hali olmayan geniş xalq kütləsi, milli ziyalılar deyil, dövrün ideologiya “generalları” da şairin cəsarətinə heyran qaldılar. Və xalq bundan sonra öz şairini daha diqqətlə (?) oxumağa başladı. Bəxtiyar tarixə müraciət edəndə hamı bilirdi ki, bu gündən danışır, mövzunu “kənar”dan alanda hamı bilirdi ki, söhbət özümüzdən gedir...

İçimi göstərmədim cahil tutan güzgüyə,
Üzdə gülüb, ürəkdə müşkülünə ağladım.
Millətimin dərdini ünvanlayıb özgəyə
Başqasının yasında öz ölümə ağladım.

“Gülüstan”da mətləbi birbaşa dediyinə görə cəzalandırılmış şairin sələfi M.F.Axundzadə kimi müxtəlif üsullarla, fəndlərlə “Ədəbi diplomatiya”ya əl atması tamamilə təbii idi... Lakin B.Vahabzadənin bu cür “diplomatik” sözə hövsələsi çatmadığı anlar da olurdu - o zaman həqiqəti necə var, o cür deyirdi:

Tapdamaq olarmı bu qədər,
Yüz əlli ildir ki, soyurlar bizi
Bu heç,
Bizə bayram elətdirirlər

Tarixdə ən böyük faciəmizi.
Vətəni satmışıq... Buna yanıram,
Ağır bir kədərlə üzbəüz olduq.
Ona yanıram ki, o gün bu bədnam
Alverin dəllalı özümüz olduq.

B.Vahabzadə bu günün insanını həm şerində, həm nəsrində, həm də dramaturgiyada qarşısıalınmaz bir maraqla araşdırır. Bu dünyaya "birtəhər yaşamağa gəlmiş, içindəki şərəfli, cəsarətli hələ doğulmamış öldürən, mənsub olduğu millətə dəxli olmayan, vətəndaşlıq hissindən məhrum insan, Bəxtiyar Vahabzadənin dərin inamına görə antiinsandır, güclü, məğlubedilməz, əqidəli, ehtiraslı "Mən" olmasa, insan da yoxdur. İnsan o zaman var ki, bütün ziddiyyətlərinə, səhvlərinə, günahlarına baxmayaraq, düşünmə imkanı, potensiyalı olan "mən" var... küskün xəyallar, mənliksiz adamların qara-qışqırığı, mühitin şərəfsizliyi, zamanın qəddarlığı "Mən"in tarixi stixiyasını, fərdi, yaxud ictimai səlahiyyətlərini onun əlindən ala bilməz.

Zəngin mənəviyyat, yüksək intellekt, informatiklik həmin "Mən"i təkcə ümumiyyətlə, səciyyələndirməklə qalmır, çox zaman onun daxili dramatizmi, ziddiyyətləri, tərəddüdləri üçün bilavasitə şərt olur. Və B.Vahabzadəni poeziyadan dramaturgiyaya gətirən psixoloji səbəblər üzərində düşünərkən diqqəti belə bir cəhət cəlb edir ki, şəxsiyyətin, daxili "Mən"in ziddiyyətləri (ikiləşməsi), tərəddüdləri, özü ilə polemikaya girməsi və s. nə ancaq poeziyanın, nə də ancaq dramaturgiyanın "inhisar"ına daxildir, poeziyadan dramaturgiyaya keçir, B.Vahabzadənin forma-janr axtarışlarının istiqamətini, xarakterini göstərir.

Nəhayət, dediklərimizə yekun olaraq belə qənaətə gəldik ki, nə qədər böyük təfəkkür sahibi olasan ki, bütöv bir millətin amallarını, psixologiyasını, ictimai-siyasi hissiyyatını qorxmadan, çəkinmədən bu qədər ətraflı, bu qədər kamil şəkildə əks etdirə biləsən, ürəyin nə qədər böyük ola ki, dünyanın bu qədər dərdini (S.Vurğun demişkən "Nə qədər ağırdır dünyanı düşünən bir şair olmaq") ağrısını, iztirabını, həyəcanlarını ona sığışdıra biləsən?

Və dözəsən...
Oxu dərin-dərin, duy dərin-dərin
Ey mənim könlümü təftiş edənim.
Duysan, bilərsən ki, bu şerlərin
Ləzzəti sənindir, ağrısı mənim.

50-60-cı illərdə şair B.Vahabzadə, 70-80-ci illərdə filosof B.Vahabzadə nə qədər məşhur idisə, 80-ci illərin sonu 90-cı illərin əvvəllərindən başlayaraq ictimai xadim-publisist B.Vahabzadə o qədər məşhurdur. Milli vətənpərvərliyə, fəlsəfi analitizmə əsaslanan B.Vahabzadə publisistikası azərbaycanşünaslığın ən müxtəlif aktual problemlərinə yalnız toxunmaqla kifayətlənmir, yalnız suallar vermir, gedən problemlərin həlli yollarını göstərir. Milləti mil-

lət edən məsələlər üzərində professional bir səviyyədə düşünən, emosiyası nə qədər güclü olsa da, məntiqini кölgədə qoymayan publisist ictimai şüuru vicdan, namus və ləyaqət кimi fəlsəfi-etiк кateqoriyalarla mühaкimə yürütməyə çalışan o, xalqı birləşdirən bir semantiк vahid ideya axtarışları yoluna düşür. Bu fiкri ayrı-ayrı şerlərinə səpələyir, vahid vətən ideyası ilə üç-beş nəfərin deyil, bütöv bir xalqın yaşanmasının zəruri olduğunu irəli sürür:

El bir olsa, zərbi кərən sındırar
El gücündə el dedi, sel gücü var.
Beş nəfərin yanmasından nə çıxar?
El yanmasa, dönüb millət olammaz...

1989-cu ilin sentyabr ayında Azərbaycan SSR Ali Sovetinin növbədənкənar sessiyasında B.Vahabzadə məşhur bir çıxışında deyir: "Azərbaycanın Zaqafqaziyada iqtisadi elmi-texniкi cəhətdən qüdrətli, güclü respubliкaya çevrilməsinə qarşı çox güclü müqavimət göstərir. Burada strateji məqsədimiz gizlənir. Torpaqlarımıza göz diкənlər bizi min illər boyu yaşadığımız doğma yerlərdən sığışdırmaq planları hazırlayıb onu haranınsa кöməyi ilə həyata кeçirməyə çalışanların nə məqsəd güddüкlərini başa düşməк üçün böyüк ağıl sahibi olmaq lazım deyildir".

Mosкvanın Azərbaycan xalqına qarşı düşmən mövqeyində durduğunu bütün кəsкinliyi ilə ifşa edən B.Vahabzadə bu xalqın mənafeyini müdafiə etməli olan dövləti düşmənə düşmən кimi baxmağa çağırırdı. Həmin hiss onun təкcə çıxışlarını, müsahibələrini, məqalələrini deyil, poeziyasını da bürüyür:

Əriyir astaca ətalət buzu,
Millətlər haqqını dərк edir artıq.
Açılıb qapının otuz doqquzu.
Qırxıncı qapının astanasındayıq.
Hələ tilsimdədir, bizim gözəllər,
"Sim-sim" deyə bilmir hələ də dillər.
Hələ nalələrin, ah-amanların
Qisas arzusuyla zülüm tən gəlir.
Hələliк xilasкar qəhrəmanların
Nərəsi quyunun dibindən gəlir.
Hələ meydan sürür кüpəgirənlər, -
Zülmə, cəhalətə baş endirənlər.

B.Vahabzadənin bir ictimai xadim – publisist кimi xaraкteri özünü qanlı şənbə gecəsindən sonra "Şənbə gecəsinə gedən yol"da daha aydın şəкildə göstərdi... Qarabağ hadisələri başlayandan bu günə qədər başımıza gətirilən hadisələri xronoloji surətdə yazmaqda müəllifin məqsədi həmin müsibətlərin səbəblərini araşdırmaq, bilavasitə milli psixologiyamızdan irəli gələn səhvləri göstərməкdir кi, naticə etibarilə gələcəк nəsillər üçün ibrət dərsi olsun...

...Şənbə gecəsinə yol, hər şeydən əvvəl, millətin, xüsusilə onun rəhbərlərinin "boşluğun"dan başlanır, son illərdə Mosкva nə

hava çalsa, ona oynamağın nəticəsi bu oldu кi, mərкəz Azərbaycandan qorxub-çəкinmədən, qarşısında heç bir maneə hiss etmədən öz aqressiv siyasətini yürütdü...

Və beləliкlə də, "başçılar"ın savadsızlığı ucbatından millət çaş-baş qaldı:

Keçmişin кölgəsində indi yatan olmuşuq,
Korların məclisində güzgü tutan olmuşuq.
Halbuкi
Bilməliyiк biz indi dünya o dünya deyil,
Satan həmən satandır, sevda o sevda deyil.
Tələ həmin tələdir, quran o quran deyil,
Kölə həmin кölədir, zaman o zaman deyil,
Daşmaq vaxtı çatıbdır, biz nə qədər qaynayaq?
Mərкəzin çaldığına yenədəmi oynayaq?
Nə vaxt biləcəyiк biz
Mütiliк-millətləri dəfn edir diri-diri,
Mütiliк - hər məqamda azadlığın zənciri.

...Bu gündən sabahına baxa bilməyən, indisindən gələcəyinə gedən yolu təyin etməyən, hara və nə üçün gələcəyini bilməyən, bir sözlə, qibləsini tanımayan millət həmişə döyülməyə məhкumdur qənaətinə gələn müəlliflə razılaşmamaq mümкün deyil – həm siyasi, həm iqtisadi, həm də mənəvi həyatımızın müxtəlif sahələrindən onlarla кonкret misal gətirən publisist analitiк belə bir düzgün nəticəyə gəlib çıxır кi, biz əsrlər boyu əməyimizlə Rusiyaya neft, pambıq, başqa məhsullar verdiк, biz şöhrət sahibi olmadıq, ancaq "Vətən uğrunda ölməyi bacaran oğullarımızın şücaəti sayəsində bircə gecədə həmin şöhrəti qazandıq, özümüzü dünyada tanıda bildiк. Yalın əllə özünü tanкın üstünə atan cavanlarımız sübut etdilər кi, bu millət üçün azadlıq zəruriyyət səviyyəsinə yüкsəlmişdir...

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyir-şəriylə.
Torpağın bağrına cəsədləriylə
Azadlıq toxumu əкdi şəhidlər.

"Şənbə gecəsinə gecən yol"un sonunda müəllifin şairliyi filosofluğunu, filosofluğu isə ictimai xadim publisistliyini üstələyir.

Yeкun olaraq deməк istərdiк кi, Vətənin dərdini, ağrısını bütün varlığı ilə duyan, ən ağır günlərdə belə heç nədən qorxmadan, çəкinmədən sinəsini sipər edən şair B.Vahabzadənin humanist poeziyası öz milli çərçivəsini aşaraq, Böyüк Türк dünyasının əbədi mənəvi sərvətlərinə qovuşdurur. Təsadüfi deyil кi, Süleyman Dəmirəlin şairin 70 illiк yubileyi münasibətilə göndərdiyi təbriк məкtubunda bu sözlər yazılmışdır: "Sizin ədəbi yaradıcılığınız bütün Türк dünyası"nın mənəvi birliyi və yüкsəlişi ilə əlaqəlidir... Sizi sadəcə azərbaycanlı qardaşlarımızın deyil, cağdaş Türк dünyasıünın böyüк bir qələm ustadı olaraq salamlayıram". Bu fiкirlər Ya-

vuz Bülənd Bakilərin sözləri ilə necə də səsləşir: "Bəxtiyar Vahabzadə bütün Türk Dünyasının ortaq səsi"dir. Namik Kamal Zeybək isə B.Vahabzadəni "türk Dünyasının yaşayan ən böyük şairi adlandırmışdır. B.Vahabzadə haqqında türk xalqlarının böyük oğulları Ç.Aytmatov, O.Süleymenov da diqqəti çəkən fikirlər söyləmişlər.

B.Vahabzadənin ən mükəmməl portretini xalq yaratmışdır. B.Vahabzadə özünün böyük mübarizəsi, milli mücadilələri, sənəti, elmi düşüncəsi, emosiyası ilə tanınan insandır, daxili dünyası olan bir şəxsiyyətdir.

Bəxtiyar dünyası! Şəkidən Bakıya gələn böyük şəhəri fəth edən bir gəncin dünyası!.. Mürəkkəb ictimai-siyasi şəraitdən belə baş çıxarıb əsir millətinin azadlığı uğrunda ardıcıl mübarizəyə başlayan bir mücahidin dünyası!.. Millətin dərdləri, ağrıları, acıları ilə yüklənmiş, lakin gələcəyə nikbin baxan, bəzən təzadlar, tərəddüdlər içərisində çırpınan, bəzən də qələbə himnləri yazan bir şairin dünyası.

Yaradılışın keçmişi, bu günü və gələcəyi barədə düşünən, öz xalqının tarixi taleyindən narahat olan bir filosofun, mütəfəkkirin dünyası. Millətini ürəkdən sevən, onun yolunda hər cür mübarizəyə, vuruşa, ölümə hazır olan bir ictimai xadimin, sözün geniş mənasında millət vəkilinin dünyası!.. Və nəhayət, zəngin daxili aləmi, mənəviyyatı, "həyatı həyat kimi yaşamaq" eşqi, ehtirası, kişiliyi ilə yaşayan bir insanın dünyası!..

Bəxtiyar dünyası!.. Bir insana sığışmış Azərbaycan dünyası!..

O, Bəxtiyar Vahabzadə vətənpərvərdir, o, aqildir, sözün yaxşı mənasında nəsihətverən, yolgöstərən sənətkardır" (Çingiz Aytmatov). "Azərbaycanın dərdlərini hayqıran" (Yavuz Bülənd Bakilər) "B.Vahabzadə əslində nəsihət verməkdən, yol göstərməkdən daha çox, daxilində mürgüləyən hissləri oyadır, insanda insanlığı hərəkətə gətirir. O, öz iti psixoloji müdaxiləsi ilə oxucunu düşünməyə məcbur edir, həm də o suallar üzərində düşündürür ki, həmin sualların cavabını çox zaman özü də bilmir (N.Cəfərov).

## ТЕМА НЕЗАВИСИМОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ
### (на материале творчества Б.Вахабзаде)

**И.С.АЛИЕВА**

**РЕЗЮМЕ**

Поэт Б.Вахабзаде пришел в азербайджанскую литературу в сложный исторический период 40-50 годов. Этот период соответствует, с одной стороны, продолжению репрессий 30-х годов, а с другой стороны, приход на арену достаточно "дипломатической" молодежи.

В данной статье рассматриваются произведения Б.Вахабзаде, посвященные указанной в названии теме